# 40 yaşlı jurnal

*«Mədəni-maarif» elmi, metodiki, publisistik jurnalı respublikamızda mətbu orqanlar arasında tərtibatı və mövzu rəngarəngliyinə görə sayılıb-seçilir.*

*İlk sayı 1967-ci ildə «Mədəni-maarif işi» adı ilə işıq üzü görüb. O vaxtdan indiyə kimi fəaliyyət göstərən bu jurnal hazırda 2000 nüsxə tirajla nəşr olunur. Jurnalın səhifələrində elm adamlarına, incəsənət xadimlərinə, qabaqcıl mədəni-maarif sahəsinin işçilərinə həsr olunmuş yazılar həmişə oxucuların marağına səbəb olur.*

*Mən 1972-ci ildən jurnalla əməkdaşlığa başlamış, həmin ənənəni bu gün də davam etdirirəm.*

*«Mədəni-maarif»in ünvanına gələn elmi, publisistik, eləcə də digər yazılar redaksiya əməkdaşları tərəfindən hazırlanıb jurnalın səhifələrinə çıxarılır. Ümumiyyətlə, «Mədəni-maarif»in hər sayı jurnalın kollektivi tərəfindən maraqlı buraxılır.*

*Qeyd edək ki, vaxtı ilə bu mətbu orqana Həbib Qurbanov, Əlövsət Bəşirov, Tarıyel İbrahimov, Rauf Həsənov və Müstəcab Muradov kimi jurnalistlər rəhbərlik edib.*

*Hazırda jurnalın baş redaktoru Yaşar Vəliyevdir.*

*«Mədəni-maarif» tərtibatı və orijinallığı ilə diqqəti cəlb edir.*

*Jurnalda görkəmli elm adamlarının, incəsənət xadimlərinin, tanınmış şair və nasirlərin yubileylərinə həsr edilmiş yazılar da oxucularda maraq doğurur.*

*Bu il jurnalın 40 yaşı tamam olur.*

*Çox güman ki, «Mədəni-maarif»in yubiley tədbirində vaxtı ilə bu kollektivdə çalışan yoldaşlar, eləcə də redaksiya ilə daim əməkdaşlıq edən qələm sahibləri hörmətlə yad edəcəklər.*

*«Mədəni-maarif» jurnalının 40 illik yubileyi münasibətilə redaksiya kollektivini təbrik edir, onlara yüksək yaradıcılıq uğurları arzulayıb «Qələminiz iti, sözünüz kəsərli olsun!» deyirik.*



**Azad Zülaloğlu**
Lənkəran şəhəri